# Ekofəalların mətinliyi düşmənə gözdağıdır

## Vətəndaş cəmiyyəti nümayəndələrinin tələbləri hələ də yerinə yetirilməyib

**Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqları, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarı əleyhinə Laçın yolunda keçirilən aksiya bir həftədir ki, davam edir. Etirazçılar ekoloji terrora son qoyulmasını, yataqlarda monitorinq keçirilməsinə şərait yaradılmasını tələb edirlər.**














Eyni zamanda şüarlarda Rusiya sülhməramlılarının komandanı Andrey Volkovla görüş də tələb olunur. Aksiyaya qoşulanların sayı isə hər keçən gün artır. Etirazçılar tələbləri yerinə yetirilənədək aksiyanı davam etdirəcəklərini və bunun dinc aksiya olduğunu vurğulayırlar. Vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekofəalların Şuşa-Laçın yolunda həyata keçirdikləri aksiya ictimaiyyətin ekoloji terrora şərait yaradan sülhməramlılara qarşı haqlı narazılığının göstəricisidir.

Ermənilər hər bir haldan sui-istifadə etdikləri kimi bu aksiyanın keçirilmə məqsədinə də başqa don geydirməyə çalışır, qərəzli iddialar irəli sürürlər. Rəsmi İrəvan bildirir ki, Laçın yolu guya etirazçılar tərəfindən bağlanıb, bölgədə humanitar fəlakət yaşanır, etnik təmizlənmə həyata keçirilir. Təbii ki, bu, düşmənin hər zamankı kimi böhtanı, həqiqəti əks etdirməyən məlumatlarıdır.

Laçın yolu isə azərbaycanlı etirazçılar tərəfindən deyil, Rusiya sülhməramlı kontingenti tərəfindən bağlanıb. Etirazçılar isə orada sivil aksiya keçirir və haqlarını tələb edirlər. Göründüyü kimi, ekofəalların aksiyası Qarabağda yaşayan ermənilər üçün heç bir təhdid yaratmır.

Eyni zamanda Qarabağda yaşayan ermənilərin qazla təchizatının dayandırılması barədə də doğru olmayan məlumatlar yayılır. Bu isə dezinformasiya olmaqla yanaşı, həm də gülünc məlumatdır, çünki Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərdə qaz təchizatı Ermənistan tərəfindən həyata keçirilir və sözügedən ərazilər ölkəmizin qaz təchizatı sisteminə hələ ki inteqrasiya olunmayıb. Digər həyati əhəmiyyətli yüklərin daşınmasına isə etirazçılar tərəfindən heç bir maneə yaradılmır.

Ümumiyyətlə, Ermənistan hökumətinin Azərbaycan əraziləri daxilində baş verən hadisələrə verdiyi şərhlər onların ölkəmizə qarşı ərazi iddialarının hələ də davam etdiyinin göstəricisidir. Ermənistan qeyri-qanuni iqtisadi fəaliyyəti ilə beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozur və bu, hüquqi məsuliyyət yaradır. Qeyd edək ki, əlvan metalların qeyri-qanuni hasilatını aparan şirkətlərə qarşı Azərbaycan hökuməti tərəfindən hüquqi tədbirlər görülür.

### Ermənilərin ərazilərimizdəki talanına, qarətinə son qoyulmalıdır

Şuşadakı aksiya vətəndaşlarımızın, ekofəalların haqlı etirazıdır. Çünki illər ərzində Azərbaycanın faydalı ehtiyatları ermənilər tərəfindən talanaraq xarici ölkələrə satılıb və bunun müqabilində onlar külli miqdarda gəlir əldə ediblər. İndi Qarabağa göndərilən Ruben Vardanyanın da məqsədi budur: Azərbaycanın təbii sərvətlərini talan etmək və ətraf mühitə ciddi ziyan vurmaq. Buna göz yumulması isə yolverilməzdir.

Ermənilərin Azərbaycan ərazilərində həyata keçirdikləri talana, qarətə son qoyulmalı, ekoloji terrora dur deyilməlidir. Bu baxımdan Laçın yolunda etirazçıların irəli sürdükləri haqlı tələblər yerinə yetirilməlidir. Azərbaycanlı mütəxəssislər öz ərazilərimizdəki mədənlərdə rahat şəkildə monitorinqlər aparmalı, buna görə onlara heç kim maneə yaratmamalıdır. Bunun üçün isə Rusiya sülhməramlıları prosesin qarşısını almamalı, talançılara kömək etməməlidirlər.

Bütün dünya bilməlidir ki, Azərbaycanın təbii sərvətləri işğal dövründə ermənilər tərəfindən qeyri-qanuni şəkildə istismar olunub və daşınıb. Təbii ki, bu işdə onların havadarlarının da rolu olub. Eyni zamanda xarici şirkətlər də qanunsuz əməllərdən çəkinməyiblər.

Aksiya artıq bir həftədir davam etsə də, sülhməramlı kontingentin komandanı tələb edilən əraziyə gəlmir. Şuşa-Laçın yolunda gecələyən etirazçılar tələblərini səsləndirməklə yanaşı, fləşmob da təşkil ediblər. Belə ki, aksiya iştirakçıları yanan şamlarla "Stop ekoterror" şüarı yazıblar.

### Monitorinq keçirilməsinə şərait yaradılmır

Məlumat üçün bildirək ki, dekabrın 16-da da Rusiya sülhməramlıları monitorinq qrupunun yataqlara yerində baxış keçirməsinə növbəti dəfə mane olub. İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak məsələləri dövlət xidməti və "Azergold" QSC-in nümayəndələrindən ibarət heyət Rusiya sülhməramlılarının qərargahında görüş keçirib. Görüşdə bir daha qeyd olunub ki, təqdim edilmiş yol xəritəsinə uyğun olaraq "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarına yerində baxış həyata keçirilməli, müvafiq monitorinq və inventarizasiya işlərinin təşkili məsələləri həllini tapmalıdır. Monitorinq qrupunun yataqlara yerində baxış keçirməsinə növbəti dəfə lazımi şərait yaradılmayıb və qarşıya qoyulan vəzifələrin icrasına nail olunmayıb.

Qrup üzvləri tərəfindən bir daha qeyd edilib ki, yataqların qanunsuz istismarı dayandırılmalı, ərazidə kompleks monitorinq işləri həyata keçirilməlidir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2022.- 18 dekabr.- S.6.